# Füzuli: İnsanlarda qurub-yaratmaq əzmi artmışdır

## *Bu günlərdə rayonda bütün imkan və səylər dövlət başçısının qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə yönəldilmişdir*

***❒ Ölkə rəhbərinin cəbhəyanı bölgəyə səfərinin yekunları və yeni hədəflərin müzakirəsi ilə bağlı Horadiz şəhərində keçirilmiş ümumrayon toplantısında bu barədə ətraflı və işgüzar söhbət getmişdir. Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyevin məruzəsində ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz və qətiyyətli tədbirlər nəticəsində bir sıra yaşayış məntəqəsinin düşməndən azad edilməsi, Füzulinin rayon kimi fəaliyyətini uğurla davam etdirməsinə hərtərəfli təminat yaradılması, Prezident İlham Əliyevin ərazidə gerçəkləşdirilən genişmiqyaslı bərpa və quruculuq işlərini ardıcıl himayə etməsi, onun bölgəyə hər səfərinin bu prosesə əlavə impuls verməsi kimi önəmli məsələlər geniş əksini tapmışdır.***





Məruzədə və YAP rayon təşkilatının sədr müavini Rəfael Zülfüqarovun, ağsaqqallar şurasının üzvü Zülfüqar Əliyevin, Fin qəsəbəsinin sakini Əli Orucovun, Əhmədbəyli kənd orta məktəbinin direktoru Süreyya Quliyevanın çıxışlarında belə bir fikir ifadə olunmuşdur ki, bu il noyabr ayının 12-də ölkə başçısının Füzuliyə növbəti səfəri rayonun çağdaş tarixində yeni səhifə açmışdır. İndi yaşından, məşğuliyyətindən asılı olmayaraq hamı bu səfərin, keçirilən görüş və söhbətlərin təsiri altındadır.

Qədirbilənliklə qeyd edilmişdir ki, Prezident görülüb başa çatdırılmış işləri, iri layihələri yüksək qiymətləndirmişdir. Bununla yanaşı, ölkə rəhbəri bölgənin hərtərəfli inkişafı ilə bağlı qarşıya yeni vəzifələr qoymuş, konkret hədəflər müəyyənləşdirmişdir. Bütün bunlar rayonda böyük razılıqla qarşılanmış, adamlarda qurub-yaratmaq əzmini və sabaha olan ümidləri daha da artırmışdır. Göstərilən dövlət qayğısı bütün imkan və səyləri hərəkətə gətirmişdir.

Bildirilmişdir ki, dövlət rəhbəri, Ali Baş Komandan İlham Əliyev Füzuliyə səfəri çərçivəsində ön xətdə əməliyyat şəraiti ilə tanış olmuş, döyüş tapşırığını yerinə yetirərkən xüsusi fərqlənənlərə qiymətli hədiyyələr təqdim etmiş və hərbi qulluqçular qarşısında çıxış etmişdir. Prezident demişdir: "1994-cü ilin yanvar ayında Füzuli rayonunda uğurlu əməliyyat keçirilmişdir, 22 kənd işğalçılardan azad edilmişdir. Bu böyük tarixi qələbə idi. Aprel döyüşləri növbəti tarixi qələbədir. Dünya bir daha gördü ki, Azərbaycan Ermənistanın işğalçılıq siyasəti ilə heç vaxt barışmayacaq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bu, bizim əzəli torpağımızdır, tarixi torpağımızdır və biz bu gün hələ də işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq".

Ölkə rəhbəri daha sonra bildirmişdir ki, Lələtəpə əməliyyatı tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və qüdrətli ordumuz var.

Daha sonra Prezident İlham Əliyev "Azərxalça" ASC-nin ilk filialının-- Füzuli rayonundakı xalça kombinatının, Dövlət Rəsm Qalereyasının açılışında iştirak etmişdir. Dövlət başçısı məcburi köçkünlər üçün salınan yeni qəsəbədə yaradılan şəraitlə, 1-ci və 11-ci Qayıdış qəsəbələrini birləşdirən avtomobil yolunun yenidənqurma və bərpasının sonrakı vəziyyəti ilə tanış olmuş, rayon ictimaiyyəti nümayəndələri qarşısında çıxış etmişdir. Toplantıda deyilmişdir ki, həmin səfər və unudulmaz görüşlər, qarşıya qoyulan vacib və taleyüklü vəzifələr, məsləhət və tövsiyələr hər bir Füzuli sakininin növbəti fəaliyyət proqramına çevrilmişdir.

Səfərin yekunlarının müzakirəsi zamanı belə bir fikir də qürur hissilə səslənmişdir ki, düşmən caynağından azad edilmiş ərazilərdə bu gün 71 mindən çox rayon sakini yaşayır. Rəfael Zülfüqarovun dediyi bu sözlər isə hamının ürəyincə olmuşdur: "Son beş ildə ölkə Prezidenti 3 dəfə Füzulidə olmuşdur. Hər səfər rayonumuza böyük diqqət və qayğının bariz nümunəsidir. Füzulilər əmindirlər ki, həyata keçirilən müdrik və uzaqgörən daxili və xarici siyasətin ali məqsədi Azərbaycanımızın, o cümlədən rayonumuzun daha gözəl, daha qüdrətli, insanlarımızın isə daha xoşbəxt və firavan yaşamasına xidmət edir".

Çıxışlarda vurğulanmışdır ki, son dövrdə ölkəmizdə abadlıq, quruculuq və inkişaf istiqamətində aparılan siyasətin tərkib hissəsi olaraq bölgədə gerçəkləşdirilən layihələr rayonun simasını tamam dəyişmişdir. Son beş ildə Horadiz şəhərində Heydər Əliyev Mərkəzi və parkı, Füzulu Rayon İcra Hakimiyyəti və YAP rayon təşkilatı üçün inzibati binalar, Mədəniyyət sarayı, Gənclər Mərkəzi, Şahmat Məktəbi, Bayraq meydanı, Qəhrəmanlar parkı, tikiş sexi, bouling zalı, soyqırımı qurbanlarının xatirəsinə abidə kompleksi istifadəyə verilmişdir. Heydər Əliyev Fondunun himayəsi ilə 240 yerlik tam orta məktəb, Tarix-diyarşünaslıq muzeyi, Horadiz şəhərində və Bala Bəhmənli kəndində körpələr evi-uşaq bağçaları tikilmiş, irili-xırdalı istirahət guşələri, xiyabanlar yaradılmışdır.

Heydər Əliyev prospekti daha da genişləndirilmiş, yeni Gənclər prospekti salınmışdır. İşğal dövründə yandırılmış və dağıdılmış evlər bərpa olunmuş, Horadiz şəhərində 7 küçə müasir dizaynla yenidən inşa edilmişdir. Ərazidə 100 mindən artıq müxtəlif ağac və gül kolu əkilmiş, küçə və parklarda müasir işıq sistemi quraşdırılmışdır. Bu gün Horadiz abad, gözəl və müasir şəhərə çevrilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Alı Alıyevin məruzəsində yaxın müddətə, o cümlədən qarşıdan gələn il üçün nəzərdə tutulmuş tədbirlər də yer almışdır. Göstərilmişdir ki, hazırda "Azərxalça" ASC-nin Horadiz filialında çalışanların sayı 160 nəfərdir. Füzulidə isə 500-600 xalçaçı var. Gələcəkdə bu filial bir az da genişləndirilməlidir. Aqroparkın tikintisində işlər davam etdirilir. İndiyə kimi rayonda 300 tondan çox pambıq yığılmışdır. Gələn il isə bu rəqəm ən azı 4-5 dəfə artırılacaqdır. Artıq fermerlərlə 2000 hektar sahədə pambıq əkilməsi barədə müqavilə imzalanmışdır. 2016-cı ildə rayon üzrə 3 ton 150 kiloqram barama təhvil verilmişdir. 2017-ci ildə bu göstərici, ən azı, 25 tona çatdırılmalıdır.

Artıq bir neçə ildir ki, Füzuli respublika üzrə 100 min ton taxıl istehsal edən rayonlar sırasındadır. Builki rəqəm 121 min ton olmuşdur. 2017-ci ildə taxıl istehsalını 130 min tona çatdırmaq olar. Bunun üçün dörd iri taxılçılıq təsərrüfatı yaradılmışdır. Bu, imkan verəcəkdir ki, rayon üzrə ümumi taxıl istehsalı, əlavə olaraq, 10-12 min ton artırılsın.

Füzuli rayonunda qazlaşdırma tam başa çatdırılmışdır. Bu, respublika üzrə hələlik yeganə belə göstəricidir. Elektrik enerjisi və içməli su təchizatı da artıq yoluna qoyulmuşdur. Ancaq burada da görüləsi işlər çoxdur. İsrafçılıq hallarına son qoyulmalı, qaz, elektrik enerjisi və su pulu vaxtında və tam ödənilməlidir.

Göründüyü kimi, Füzuli rayonunda qarşıdakı illər üçün geniş hədəflər, konkret vəzifələr müəyyən edilmişdir. Ölkə Prezidentinin rayona səfəri, verilən qiymətli məsləhət və tövsiyələr bütün sahələrdə işlərin gedişini daha da sürətləndirmiş, adamlara əlavə güc və stimul vermiş, imkan və ehtiyat mənbələrini hərəkətə gətirmişdir. Təsadüfi deyil ki, Prezidentin məcburi köçkünlər üçün yeni qəsəbədə yaradılan şəraitlə tanışlıq zamanı dediyi aşağıdakı sözlər yığıncaqda dəfələrlə səslənmişdir: "Siz – burada yaşayan insanlar böyük hörmətə layiqsiniz. Siz döyüş bölgəsində, düşmənlə üz-üzə yaşayırsınız. Buna baxmayaraq, qurursunuz, yaradırsınız, uşaqlar böyüdürsünüz. Mən sizə minnətdaram. Sizi salamlayıram. Sizə yeni uğurlar arzulayıram."

Bəli, bu gün Füzulidə sağlam mənəvi-psixoloji mühit, yaradıcı və təşəbbüskar ab-hava var. Kimliyindən, sənətindən, yaşından asılı olmayaraq, hamı iş üstündədir, qurur, yaradır, sabaha böyük inam və ümidlə baxır. Ölkə Prezidentinin rayona səfərindən sonra isə bu inam böyük ruh yüksəkliyi və əməli coşğunluq yarartmışdır.

Bu gün Füzulidə gedən proseslər bir daha göstərir ki, Ağdama, Əsgərana, Xankəndiyə, Şuşaya, Kəlbəcərə, Laçına, Cəbrayıla, Zəngilana, Qubadlıya, Xocavəndə, Ağdərəyə gedən yollar Horadizdəki kimi quruculuq işlərindən, Lələtəpədəki kimi döyüş qəhrəmanlığından keçəcəkdir. O günə isə çox az qalır…

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***